# Baş Prokurorluq sosial şəbəkələrdə yayılan və guya Azərbaycan hərbçilərinin erməni əsirlərinə kobud davranışına dair əsassız videogörüntülərlə bağlı məlumat yayıb

Bəzi sosial şəbəkə istifadəçiləri, o cümlədən "İnfoteka24" və digər xarici kütləvi informasiya vasitələri tərəfindən guya Azərbaycan Ordusunun hərbi qulluqçularının erməni əsirlərinə qarşı qanunsuz davranışlarını əks etdirən videogörüntülər yayılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ilkin əlamətlərə görə həmin videoların saxta olmasına əsaslı şübhələr yaranıb.

Hazırda bununla bağlı Baş Prokurorluq tərəfindən araşdırma aparılır və nəticəsi barədə ictimaiyyətə ətraflı məlumat veriləcək.

Azərbaycan.- 2020.-16 oktyabr.- S.6.